# İndi əsas vəzifəmiz azad edilmiş torpaqların yaralarının sağaldılmasıdır



***Azərbaycan İkinci Vətən müharibəsindəki şanlı Zəfərinin bəhrəsini görməkdədir. Azərbaycan Prezidenti Ali Baş Komandan İlham Əliyevin ardıcıl və prinsipial siyasəti, qətiyyətli diplomatiyası bu qələbənin əsasını təşkil etdi. Bunun nəticəsidir ki, cənab İlham Əliyev ardıcıl olaraq işğaldan azad edilmiş torpaqlarımıza səfərlər edir, tapşırıqlarını verir, bölgənin gələcəyini müəyyənləşdirir. Prezident İlham Əliyev azad edilən torpaqları hər an diqqətdə saxlayır.***

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç bildirdi.

H. Kılıc qeyd etdi ki, dövlət başçısı İlham Əliyevin fevralın 14-də işğaldan azad edilmiş Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olması bir daha onu göstərir ki, erməni vandalizminə məruz qalan bu torpaqların yenidən çiçəklənməsi, yeni həyatın başlaması, köçkünlərin öz ata-baba yurdlarına qayıtması onun diqqət mərkəzindədir. Prezident İlham Əliyevin öz ailə üzvləri ilə doğma Azərbaycan torpaqlarına səfəri həmrəyliyin göstəricisidir və düşmənə güc nümayişidir. Bir vaxtlar Ermənistan bütün sülh təkliflərinə baxmayaraq, Azərbaycanın bu qədim torpaqlarını geri vermək fikrində deyildi. İndi isə qalib ordumuzun gücü ilə düşmən pərən-pərən salındı və işğalda inləyən yurdlarımız gün işığına çıxdı.

Sabiq səfir bildirib ki, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində böyük Zəfər çalması regiondakı vəziyyəti kökündən dəyişmişdir. İndi bölgənin hakimi Azərbaycandır. Azərbaycan bu qələbəsi ilə düşmənə və havadarlarına sübut etdi ki, öz haqqından heç zaman vaz keçməyəcəkdir.

***Anar TURAN,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 16 fevral.- S.8.